

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 9 (21.419)

*15 yanvar 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahı qəbul edib.

Azərbaycan ilə Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyəsinin məmnunluq doğurduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin yaxın tərəfdaş və müttəfiq dövlətlər olduğunu, xalqlarımızın bir-birinə qardaşlıq münasibəti bəslədiyini deyib. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana səfərini və səfər zamanı aparılan konstruktiv müzakirələri məmnunluqla xatırlayıb. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əlaqələrin genişləndirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da gücləndirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Pakistanın Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahın ölkəmizə səfərinin bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullah ölkəmizin, xüsusilə Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını deyib. Pakistan ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin tarixi, dini və mədəni köklərə malik olduğunu xüsusi vurğulayan Muhammad Zakaullah xalqlarımızın münasibətlərinin yüksək səviyyədə olduğunu deyib, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin vacibliyini qeyd edib.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafında səmərəli fəaliyyətlərinə görə:

Hacıyev Emin Davud oğlu – "**Əməkdar bədən tərbiyəsi və idman xadimi**" fəxri adı ilə;

Əliyev İbadulla Əkbər oğlu – "**Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə**" nişanı ilə;

Bağırov Ayaz Aydın oğlu

Qurbanov Xəyal Məhərrəm oğlu

Salmanlı Nazim Məmməd oğlu – "**Rəşadətli əməyə görə**" nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 yanvar 2016-cı il*

## Kəngərli rayonunun Yurdçu kəndində kompleks quruculuq işləri aparılmışdır

Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin təməlində inkişaf və tərəqqi dayanır. Dahi şəxsiyyətin yolunun davam etdirilməsi Naxçıvanın inkişafında yeni mərhələnin əsasını qoymuş, muxtar respublikanın quruculuq xəritəsi genişlənmişdir. Son illər Kəngərli rayonunda da geniş tikinti-quruculuq işləri həyata keçirilmişdir. İnsana qayğını özündə təcəssüm etdirən bu inkişaf rayonun bütün kəndlərini əhatə etmiş, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilmiş, yollar abadlaşdırılmış, sənaye müəssisələri yaradılmış, yeni iş yerləri açılmışdır.

## Yurdçu kənd yolu yenidən qurulmuşdur

Yol-nəqliyyat kompleksinin müasirləşdirilməsi muxtar respublikada həyata keçirilən quruculuq işlərinin tərkib hissəsinə çevrilmişdir.

Yanvarın 14-də Yurdçu kənd yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yolun istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmişdir.

Məlumat verilmişdir ki, 4,5 kilometrlik kənd yolu yenidən qurulmuş, yola asfalt örtük salınmışdır. Bununla da kənddaxili yollarda sakinlərin gediş-gəlişi xeyli asanlaşmış, hərəkətin təhlükəsizliyi təmin olunmuşdur. Yolun üzərində 72 su keçidi qoyulmuş, yol kənarlarında beton kanal çəkilmişdir.



## 2016-cı ildə ilk məktəb binası Yurdçu kəndində istifadəyə verilmişdir

Yanvarın 14-də Yurdçu kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov tədbirdə çıxış edərək demişdir ki, muxtar respublikanın digər yaşayış məntəqələri kimi, Kəngərli rayonunda da geniş quruculuq işləri aparılır. Ötən il dekabrın 1-də ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olan yeni Sənaye Kompleksi son illər Kəngərli rayonunda istifadəyə verilən 100-cü obyektdir. Rayon mərkəzində və 10 kəndin hər birində təhsil, səhiyyə, mədəniyyət və digər infrastruktur sahələr üçün müasir iş şəraiti yaradılmış, yollar yenilənmiş, abadlıq işləri görülmüşdür. Bu tədbirlərin davamı olaraq Yurdçu kəndində müasir məktəb binası, kənd və xidmət mərkəzləri tikilmiş, kənd yoluna asfalt örtük salınmış, elektrik, qaz və rabitə xətləri yenilənmişdir. Kamal Ələkbərov həyata keçirilən tədbirlərə görə rayon ictimaiyyəti adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yurdçu kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, onlara tədrisdə uğurlar arzulayaraq demişdir: Bu gün ölkəmizdə həyata keçirilən tədbirlər içərisində təhsilin inkişafı və məktəb işi xüsusi yer tutur. Qəbul olunmuş dövlət proqramına uyğun olaraq ölkəmizin hər yerində təhsilin inkişafı sahəsində tədbirlər görülür, müasir avadanlıqlarla təmin olunan yeni məktəb binaları, uşaq bağçaları tikilib istifadəyə verilir. Bu gün istifadəyə verilən Yurdçu kənd tam orta məktəbinin binası da ölkəmizdə təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərin davamıdır. Məktəb binasında yaradılan müasir tədris şəraiti ölkəmizin gələcək təminatçıları olan gənclərin hərtərəfli yetişməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Təhsil elə bir sahədir ki, orada geriləməyə heç vaxt yol vermək olmaz. Çünki təhsilin bir il geriləməsi ölkənin gələcək həyatının bir il inkişafdan qalması, ixtisaslı kadrlarla təminatında problemlərin yaranması deməkdir. Ona görə də ölkəmizdə təhsilin inkişafına daim diqqət və qayğı göstərilir, gələcəyimiz üçün etibarlı təminat yaradılır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***"Dövlət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir".*** Bu gün Yurdçu kəndində müasir tədrisin tələblərinə cavab verən məktəb binasının tikilib şagird və müəllimlərin istifadəsinə verilməsi də ulu öndərimizin tövsiyələrinin həyata keçirilməsinin nəticəsidir.

Ali Məclisin Sədri demişdir: Yaradılan şəraitdən səmərəli istifadə etmək məktəb kollektivinin qarşısında duran əsas vəzifədir. Məktəbdə oxuyan hər bir şagird təhsilini başa vurduqdan sonra mütləq bir peşəyə yiyələnməlidir. 2015-ci ildə məktəbin məzunlarından 6-sı ali məktəblərə, 1-i orta ixtisas məktəbinə, 2 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Məktəbin uğurları onu deməyə əsas verir ki, burada qarşıya qoyulan vəzifələr düzgün icra olunmuş,

*Ardı 2-ci səhifədə*





müəllim-şagird münasibətləri qarşılıqlı hörmət, tələbkarlıq və çalışqanlıq əsasında qurulmuşdur. Bu nailiyyətlərin qazanılmasında xidməti olan müəllimlərin əməyi də dövlətimiz tərəfindən qiymətləndirilmiş, müəllimlərdən 1-i “Tərəqqi” medalı, 2-si “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görülmüş, 1 müəllim “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi olmuşdur.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, şagirdlərin yaxşı təhsil alaraq ölkəmizin gələcək inkişafında fəal iştirak edəcəklərinə əminliyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri Kəngərli rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan şagirdlərə kompüter dəsti hədiyyə etmiş, məktəb binasında yaradılan şəraitlə maraqlanmışdır.



Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan məktəb 270 yerlikdir. Müasir tədris avadanlıqları və zəruri inventarlarla təchiz olunan binada 3-ü elektron lövhəli olmaqla, 15 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Kompüter otağında internetə çıxışı olan 19 kompüter şagirdlərin istifadəsinə verilmişdir. Məktəbin kitabxana fondunda 4 minə yaxın dərslik və bədii ədəbiyyat vardır. Baxış zamanı şagirdlərdə mütaliə vərdişlərinin yaradılması və kitabxana günlərinin keçirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Məktəbin laboratoriyalarında quraşdırılan avadanlıqlar kimya, biologiya və fizika fənlərinin tədrisində əyani vəsaitlərdən istifadəyə, şagirdlərin keçilən dərsləri daha yaxşı mənimsəmələrinə imkan verəcəkdir.

Elektron lövhələr ümumtəhsil məktəblərində distant tədrisin tətbiqinə geniş imkanlar açır. Artıq muxtar respublikanın bütün təhsil müəssisələri ilə muzeylər arasında interaktiv əlaqələr qurulur. Elektron lövhəli sinifdə 220 təhsil müəssisəsi ilə Cəmşid Naxçıvanskinin ev-muzeyi arasında keçirilən distant dərs izlənilmişdir.

Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti əsasında elektron dərsliklərin hazırlanması və ümumtəhsil məktəblərində tədris olunması barədə tapşırıqlar vermişdir.

Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların ilkin hərbi vərdişlərə yiyələnməsi və fiziki hazırlığı diqqət mərkəzində saxlanılmış, hərbi kabinə, geniş idman zalı və açıq idman qurğuları istifadəyə verilmişdir.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Ölkəmizdə təhsil sahəsində görülən işlər bir məqsədə xidmət edir. O da bilikli və vətənpərvər gənclər yetişdirməkdən, ölkəmizin gələcəyi üçün etibarlı təminat yaratmaqdan ibarətdir. Yurdçu kənd tam orta məktəbinin yeni binasında gələcək perspektiv nəzərə alınmış, məktəbin uzun illər birnövbəli fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Əvvəllər məktəblərdə tədris prosesində ancaq kitablardan istifadə olunurdusa, bu gün şagird və müəllimlərin istifadəsinə elektron lövhələr, elektron dərsliklər, kompüter sinifləri, müasir tədris avadanlıqlarının quraşdırıldığı fənn laboratoriyaları verilir. Bütün bunlar da keçilən dərslərin daha yaxşı mənimsənilməsinə imkan verir. Ona görə də kollektiv yaradılan bu imkanlardan səmərəli istifadə etməli, tədris günün tələbinə uyğun qurulmalı, təhsilli gənclər yetişdirilməlidir.

Müəllim Pərvanə Məmmədova demişdir ki, 2016-cı ilin ilk günlərində Yurdçu kəndində müasir məktəb binasının istifadəyə verilməsi kollektivin və şagirdlərin sevincinə səbəb olmuşdur. Yeni məktəb binasında yaradılan şərait gənclərin intellektli, təhsilli və vətənə layiqli övlad kimi yetişmələrinə imkan verəcəkdir. Bütün bunlar kollektivin məsuliyyətini daha da artırır. Müəllimlər göstərilən diqqət və qayğının müqabilində daha səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək tədrisin keyfiyyətini artıracaq, vətənpərvər və savadlı gənclər yetişdirməklə göstərilən etimadı doğruldacaqlar.

## Yurdçu Kənd Mərkəzinin açılışı olmuşdur





Yanvarın 14-də Yurdçuda yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kənd mərkəzində Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün iş otaqları ayrılmış, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, klub və 50 yerlik iclas zalı istifadəyə verilmişdir. Kitabxanada 1644 ədəbiyyat vardır. Rabitə evində 192 nömrəlik ATS quraşdırılmış, yeni poçt bölməsi fəaliyyətə başlamış və sürətli internetə çıxış imkanı yaradılmışdır. Hazırda Yurdçu kəndində 47 internet istifadəçisi vardır.



Soyuducu və dərman ləvazimatları ilə təmin olunmuş baytarlıq məntəqəsinə baxış zamanı bildirilmişdir ki, baytarlar mütəmadi olaraq epizootiya əleyhinə tədbirlər görür, dezinfeksiya işləri aparır, heyvandarlığın inkişafına öz töhfələrini verirlər.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 115 üzvü vardır. Mərkəzdə ərazi ilk təşkilatı üçün otağın ayrılması işin daha səmərəli təşkilinə şərait yaradacaqdır.

Muxtar respublikanın kəndlərində səhiyyə xidmətinin təşkilinə xüsusi diqqət yetirilir. Yurdçu Kənd Mərkəzində feldşer-mama məntəqəsi üçün də 3 otaq ayrılmışdır. Məntəqə lazımi dərman vasitələri, soyuducu, peyvənd və ilkin tibbi yardım çantaları ilə təmin olunmuşdur.

Məntəqə müdiri Gülnar Abbasova məlumat vermişdir ki, yaradılan şərait kənddə tibbi xidmətin hərtərəfli təşkilinə imkan verəcəkdir. Tibb işçiləri hamilə qadınları və yeni doğulan körpələri qeydiyyata alır, onlar mütəmadi olaraq müayinədən keçirilir. Həmçinin uşaqlar arasında vaxtlı-vaxtında peyvənd işi aparılır.

Ali Məclisin Sədri kənddə səhiyyə maarifi işinin aparılması və tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Binanın ətrafı da abadlaşdırılmış, yaşıllıq sahələri salınmışdır.

*Ardı 3-cü səhifədə*

# Yeni xidmət mərkəzi sakinlərin rahatlığına təminat verir




Həmin gün Yurdçu kəndində xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə ərzaq və sənaye malları mağazaları, ət satışı yeri, bərbərxana və qadın gözəllik salonu fəaliyyətə başlamış, 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, muxtar respublikanın kəndləri abadlaşır, müasir görkəm alır. Bu gün Yurdçu da müasir kəndlər sırasına qoşuldu. Kənddə kompleks quruculuq işləri aparılmış, məktəb binası, kənd yolu yenidən qurulmuş, müasir rabitə və poçt xidməti istifadəyə verilmiş, kənddə şəhər rahatlığı yaradılmışdır. Bütün bunlar dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Sakinlər yaradılan şəraitdən səmərəli istifadə etməli, tikilənləri, qurulanları qorumalı, yaşıllıqlar artırılmalı, təsərrüfatlar genişləndirilməlidir.

Kənd sakini Qadir Məmmədov minnətdarlıq edərək demişdir: İnsanların rahat yaşayışına hesablanan bu tədbirlər sakinlərin qurub-yaratmaq əzmini artırır. Ali Məclisin Sədri bir neçə dəfə Yurdçu kəndində olmuş,




kənddə subartezian quyusu istifadəyə verilmiş, kəhrizlər bərpa olunmuş, mənzillər telefonlaşdırılmışdır. Bu gün isə kənddə kompleks quruculuq işləri aparılmışdır. Artıq Yurdçu kəndində insanlar rahat yaşayır, təsərrüfatlar genişləndirilir, məskunlaşma artır. Bütün bunlar dövlətin yaratdığı şəraitin nəticəsində mümkün olmuşdur. Ona görə də yaradılan bu abadlığı qoruyub saxlayacaq, ölkəmizin inkişafına töhfələr verəcəyik.

* * *

Tikinti-quruculuq işləri zamanı kəndin rabitə, elektrik və qaz infrastrukturu da yenilənmişdir. Kənddə 920 metr məsafədə fiber-optik kabel, 3300 metr rabitə, 1 kilometr elektrik verilişi, 930 metr yeni qaz xətti çəkilmiş, 1100 metr məsafədə qaz xəttinin yeri dəyişdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*1926-cı il yanvarın 15-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin Qərarı ilə Mərkəzi İcraiyyə Komitəsinin yanında Bədən Tərbiyəsi və İdman Şurası yaradılmışdır. Müxtəlif adlarla fəaliyyət göstərən qurum 1946-cı ildə Naxçıvan MSSR Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsi adlandırılmışdır. 1994-cü ildə isə komitə ləğv edilmiş və onun bazasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi yaradılmışdır.*

*15 yanvar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaranması günüdür*

# Muxtar respublikada gənclərlə iş və idmanın inkişafı sahəsində ardıcıl tədbirlər görülür

Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclərlə iş və idmanın inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Həmin dövrdə ölkəmizin bütün bölgələrində, o cümlədən Naxçıvanda idman məktəbləri fəaliyyətə başlamış, stadionlar və digər mühüm idman obyektləri tikilərək istifadəyə verilmişdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra da ümummilli lider gənclər sahəsində həyata keçirilən tədbirləri və idmanın inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Dahi şəxsiyyət bu sahədə mühüm qərarlar qəbul etmiş, zəngin qanunvericilik bazası yaradılmış, dövlət proqramları icra olunmuşdur. Azərbaycanda yeni idmançılar nəsli yetişdirilmiş, onların beynəlxalq yarışlarda iştirakı təmin edilmişdir. Bu illərdə təhsilli və vətənpərvər gənc nəslin yetişdirilməsi qayğısına da qalınmışdır. Bu sahədə görülən işlər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də diqqət mərkəzində saxlanılır. Ölkəmizdə gənclər siyasəti və idman hərəkatının genişlənməsinə xidmət edən kompleks tədbirlər həyata keçirilir, Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır.

Bu gün dövlət başçısının diqqət və qayğısı ilə muxtar respublikada da idmanın maddi-texniki bazası gücləndirilir, gənclərlə iş və idman sahəsində mühüm işlər görülür. Xüsusilə gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, istedadlı gənclərə dövlət qayğısının artırılması, gənc ailələrin inkişafına yönəlmiş layihələrin həyata keçirilməsi, eyni zamanda gənclərin məşğulluğunun təmin edilməsi, gənclər üçün sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması diqqət mərkəzində saxlanılır. Gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Xüsusilə son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisində gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr, qarşıya qoyulan vəzifələr bu mənada mühüm əhəmiyyətə malik olmuşdur.


İlham Əliyev adına Olimpiya-İdman Kompleksi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis olunmuş, kitaba adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Dövlət gənclər siyasətinin davamı olaraq Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmış, 2014-cü ildə Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmişdir. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Gənclərin inkişafı sahəsində görülən işlər sırasında onların elmi potensialının formalaşdırılması, eləcə də mütaliə vərdişlərinin və dünyagörüşünün artırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində və Gənclər Mərkəzində elektron kitabxanalar, eləcə də Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana yaradılmış, Distant Tədris Mərkəzi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlılığına hesablanmışdır. Sərəncama əsasən, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələr öz ixtisaslarına uyğun olaraq dövlət təşkilatları və müəssisələr tərəfindən hamiliyə götürülmüşdür. Açıq dərslərə, peşə və istehsalat təcrübəsinə cəlb olunan bugünkü tələbə-gənclik gələcəyin peşəkar mütəxəssisi kimi yetişir, təhsilini başa vurduqdan sonra məşğulluq problemi ilə üzləşmir. Ümumiyyətlə, bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada məşğul əhalinin çox hissəsini gənclər təşkil edir.


Gənclər və İdman Nazirliyinin inzibati binası

Muxtar respublikada idman infrastrukturunun yenidən qurulması, yeni idman obyektlərinin, olimpiya-idman komplekslərinin inşa edilməsi də qarşıda duran əsas vəzifələrdəndir. Hazırda Naxçıvanda 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, 1 Şahmat Mərkəzi, 1 Atıcılıq Mərkəzi, 1 peyntbol meydançası, rayon mərkəzlərində şahmat və uşaq-gənclər idman məktəbləri fəaliyyət göstərir. Uşaq və gənclərin idmana cəlbi sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq ümumtəhsil məktəblərində müasir idman zalları yaradılmış, yeni idman avadanlıqları quraşdırılmışdır. Muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılmış, 2002-ci ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Yüngül Atletika, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal İdman Növləri, Atıcılıq federasiyaları yaradılmışdır. Bu sahədə görülən işlərin və yaradılan müasir infrastrukturun nəticəsidir ki, hazırda muxtar respublikada 39 minə yaxın yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur,


Naxçıvan şəhərində Gənclər Mərkəzi

Naxçıvan idmançıları respublika və beynəlxalq miqyaslı yarışlarda qələbələr qazanırlar. Muxtar respublikamızda qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülür. Ötən il Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində "Xatun" Bədii Gimnastika İdman Klubu fəaliyyətə başlamışdır.

Yaradılan müasir idman infrastrukturu, öz növbəsində, Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açmışdır. 2003-cü ildə Naxçıvanda 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, 2011-ci ildə karate üzrə "Naxçıvan Open" beynəlxalq turniri, 2011-ci ildən etibarən hər il mütəmadi olaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə "Naxçıvan Kuboku" uğrunda beynəlxalq turnirlər, beynəlxalq şahmat festivalları, 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı, 2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş qol-bol paralimpiya idman növü üzrə beynəlxalq turnir, 2014-cü ildə veteranlar arasında ağırlıqqaldırma üzrə dünya çempionatı, o cümlədən 2015-ci ildə kikboksinq üzrə Azərbaycan çempionatı muxtar respublikada keçirilmişdir. Bütün bunlar muxtar respublika idmanının inkişafına göstərilən qayğının və bu sahədə yaradılan müasir infrastrukturun nəticəsində mümkün olmuşdur.

*Yaranmasının 90 illiyini qeyd edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi bundan sonra da öz fəaliyyətini günün tələbləri səviyyəsində quracaq, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə gənclərin idmana cəlbini diqqət mərkəzində saxlayacaq, istedadlı idmançılar nəsli yetişdiriləcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# Humanitar aksiya keçirilir

*Bakı şəhərində fəaliyyət göstərən Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti dəfələrlə muxtar respublikaya gələrək humanitar aksiya keçirib. Heyət bu dəfə xəstəxananın baş həkimi Telman İbadovun rəhbərliyi ilə yanvarın 13-də Şərur rayonunda humanitar aksiyaya start verib.*



Aksiyadan reportaj hazırlamaq üçün yol aldıq Şərur Rayon Mərkəzi Xəstəxanasına. Xəstəxanaya gedərkən yolboyu insan sağlamlığının cəmiyyət üçün əhəmiyyəti və bu qiymətli sərvətin qorunması məqsədilə dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər haqqında düşünürdüm.

Budur, Şərur Rayon Mərkəzi Xəstəxanasının önünə çatırıq. İçəri daxil oluruq. Səhiyyə ocağının dəhlizlərində adamların çoxluğu diqqətimizdən yayınmır. Ancaq bu, o demək deyil ki, gördüyümüz insanların hamısı sağlamlığından şikayətçidir. Öyrənirik ki, artıq vətəndaşlar təkcə hər hansı ağır xəstəliyə düçar olanda xəstəxanaya üz tutmurlar. Onlar xəstəxanada yaradılan şərait və onlara göstərilən nümunəvi xidmətdən bəhrələnərək tez-tez ambulator müayinələrdən keçirlər.

Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadovla söhbət zamanı bildirdi ki, yalnız sağlam olan bir insan xalqın xeyrinə qurub-yaratmaq üçün özünün yaradıcı imkanlarından tam istifadə edə bilər. Məhz buna görə də müasir dövrdə hər bir dövlətin iqtisadi potensialı və qüdrəti bir sıra mühüm meyarlarla yanaşı, həm də səhiyyə sisteminin inkişaf səviyyəsi ilə ölçülür. Bu gün Naxçıvan Muxtar Respublikasında bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdən istənilən qədər danışmaq olar. Yeni səhiyyə ocaqları tikilir, onlar müasir tibbi avadanlıqlarla təchiz olunurlar. Bundan başqa, Naxçıvanda tez-tez belə humanitar aksiyalar da keçirilir. Belə tədbirlər xəstələrin muxtar respublikadan kənara getmədən müayinə və müalicəsinin, cərrahi əməliyyatlarının burada təşkilinə imkan verir.

Həkim İradə Abbasova üçün ayrılmış otağa daxil oluruq. O, Şərur rayonunun Şəhriyar kəndindən olan Sevil Qurbanovanı müayinə edir. Pasiyent mədə-bağırsaq xəstəliyindən əziyyət çəkir. Həkim məsləhəti ilə ondan ümumi qan analizi götürüləcək. Deyir ki, belə bir tədbirin keçirilməsi bütün vətəndaşlar kimi, onun da ürəyincədir.

Dəhlizdə Şərur rayonunun Dərəkəndindən olan Niyar Seyidova ilə görüşüb həmsöhbət oluruq:

– Başımda ağrılar olur. Nevropatoloq Qabil Bayramov məni diqqətlə müayinə etdi. Ciddi xəstəliyimin olmadığını dedi. Yazdığı müalicə ilə tez bir zamanda bu ağrılardan qurtulacağımı bildirdi.

Öyrənirik ki, həkimlərdən ginekoloq Kənarə Abdullayeva, kardioloq Nailə Həsənova, endokrinoloq Gülxanım Qurbanova, cərrah Zahid Zahidov, allerqoloq Fəxrəddin Cəfərov və başqalarının iştirakı ilə aksiyanın ilk günü 1200-dək pasiyent profilaktik tibbi müayinədən keçirilib. Aksiya zamanı pasiyentlər hematoloji, uroloji, nevroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə əhatə olunublar.

Qeyd edim ki, həkim heyəti bir sıra cərrahi əməliyyatlar da aparıb. Bu barədə Şərur şəhər sakini Sevda Həbibova danışır:

– Uzun illərdir, bacım Ahəstə süd vəzindən əziyyət çəkirdi. Bakıdan gələn həkim heyəti bacımı əməliyyat etdi. O qədər sevincliyik ki. O, yüksək həkim nəzarətindədir. Belə xeyirxah aksiyaların təşkilatçı və icraçılarına ailəmiz adından minnətdarlığımızı bildiririk.

Ümumiyyətlə, xəstəxanada kiminlə həmsöhbət oldumsa, vətəndaşlar onlara göstərilən bu xidməti dövlətimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi tədbirlərin tərkib hissəsi kimi dəyərləndirərək öz minnətdarlıqlarını bildirdilər.

Humanitar aksiya bu gün başa çatacaq.

**Sara ƏZİMOVA**

# Sərbəst güləş üzrə şəhər birinciliyi başa çatıb



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyinə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birincilikdə idmançılar 10 çəki dərəcəsində mübarizə aparıblar.

Şəhər birinciliyinin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi aparatının rəhbəri Canməmməd Canməmmədov və federasiyanın sədr müavini Faiq İsgəndərov bildiriblər ki, muxtar respublikada belə yarışların keçirilməsində əsas məqsəd güləşin ənənələrini inkişaf etdirmək və yeniyetmələr arasında bu növü təbliğ etməkdir. Vurğulanıb ki, son illərdə muxtar respublika idmanına göstərilən diqqət nəticəsində yeni idman obyektləri, idman zalları tikilərək idmançıların ixtiyarına verilib. Bu da istedadlı gənclərin üzə çıxmasında müstəsna roy oynayır.

Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına əsasən keçirilən birincilikdə Tuncay Məmmədov (29 kiloqram), Kənan Qasımov (32 kiloqram), Rəmzi Babayev (35 kiloqram), Hüseyn Əhmədli (38 kiloqram), Abbas Nəzərəliyev (42 kiloqram), Muxtar İbrahimov (47 kiloqram), Mətləb Talıblı (53 kiloqram), Orxan Ələkbərov (59 kiloqram), Sərdar Tağıyev (66 kiloqram) və Qoca Əhmədov (73 kiloqram) öz çəki dərəcələrində rəqiblərini üstələyərək qalib adını qazanıblar.

Sonda ilk üç pilləni tutan idmançılar diplom və fəxri fərmanlarla təltif olunublar.

# Boks üzrə şəhər birinciliyinə yekun vurulub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən boks üzrə Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 90 illiyinə həsr olunmuş birincilikdə 60-dan çox dəri əlcək sahibi qüvvəsini sınayıb.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi aparatının rəhbəri Canməmməd Canməmmədov ilk olaraq nazirliyin 90 illik yubileyi münasibətilə muxtar respublikanın idman ictimaiyyətini təbrik edib. Bildirib ki, son illər muxtar respublikada boksun inkişafı istiqamətində mühüm addımlar atılıb. Məhz bunun nəticəsidir ki, bu gün Naxçıvan boksçuları ölkə miqyaslı turnirlərdə və beynəlxalq arenalarda arzuolunmaz rəqib siması formalaşdırıblar.

Sonra federasiyanın sədr müavini Məmmədcəfər Əliyev yarışın qaydaları haqqında idmançılara məlumat verib.

Birinciliyin reqlamentinə əsasən, gənclər (1998-1999-cu illər təvəllüdlü) və yeniyetmələr (2000-2001-ci illər təvəllüdlü) müvafiq olaraq 6 və 9 çəki dərəcəsində rinqə çıxıblar. Birincilikdə yüksək fəallıq göstərən gənclərin mübarizəsində Hikram Bayramov (60 kiloqram, Kəngərli rayonu), Yenisey İmanov (64 kiloqram, Naxçıvan şəhəri), Əjdər Məmmədov (69 kiloqram, Naxçıvan şəhəri), Məhəmməd Bayramov (75 kiloqram, Kəngərli rayonu), Toğrul İsmayılov (81 kiloqram, Naxçıvan şəhəri) və Nihad Orucov (91 kiloqram, Naxçıvan şəhəri) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar. Yeniyetmələrin mübarizəsində Ülvi Süleymanov (40 kiloqram, Naxçıvan şəhəri), Kənan Şəfiyev (44 kiloqram, Şərur rayonu), Muxtar Fərzəliyev (48 kiloqram, Naxçıvan şəhəri), Səttar Seyidov (52 kiloqram, Kəngərli rayonu), Kamran Allahverdiyev (56 kiloqram, Naxçıvan şəhəri), Aydəniz Məhərrəmov (60 kiloqram, Naxçıvan şəhəri), Cəmil Cəmilli (63 kiloqram, Şahbuz rayonu), Abbas Fərəcli (66 kiloqram, Kəngərli rayonu) və İman Vəliyev (70 kiloqram, Naxçıvan şəhəri) qalib adını qazanıblar.

Sonda qalib gələn idmançılar diplom və fəxri fərmanlarla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

# Kursantlar və şagirdlər Xatirə Muzeyini ziyarət ediblər

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Gənclər və İdman, Təhsil nazirliklərinin və Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə liseyin kursantları Xatirə Muzeyini ziyarət ediblər.***



Xatirə Muzeyinin direktoru Aynur Məhərrəmova kursantlara muzeyin yaranma tarixindən danışıb. Bildirilib ki, 2014-cü ildə bu mədəniyyət müəssisəsi üçün yeni bina inşa olunub. Muzey binasının Şəhidlər xiyabanı yaxınlığında yerləşməsi onun əhəmiyyətini daha da artırır. Sonra kursantlar muzeydə olan eksponatlarla yaxından tanış olublar. Xatirə Muzeyinin ziyarətçilərinə məlumat verilib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş naxçıvanlıların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir. Eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi ziyarətçilərin muzeylə daha yaxından tanış olmasına imkan yaradır.

Sonda kursantları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, 20 Yanvar faciəsinin 26-cı ildönümünün yad edilməsi ilə əlaqədar Naxçıvan şəhərindəki tam orta məktəblərin şagirdlərinin də Xatirə Muzeyinə ekskursiyası təşkil edilir.

# İnşa yazı və şeir müsabiqələri

20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri arasında "Torpaq uğrunda ölən varsa, vətəndir" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən müsabiqəyə 17 tam orta məktəbdən 34 yazı təqdim olunub. Münsiflər heyətinin qərarı ilə 16 nömrəli tam orta məktəbin IX sinif şagirdi Şəms Əliyeva birinci yerə layiq görülüb. Digər iki pillədə isə 12 nömrəli tam orta məktəbin XI sinif şagirdi Günay Mirzəyeva və 17 nömrəli tam orta məktəbin IX sinif şagirdi Bəhriyyə Hüseynova qərarlaşıblar.

Qeyd edək ki, 16 nömrəli tam orta məktəbin IX sinif şagirdi Şəms Əliyeva inşa yazısı ilə Naxçıvan Muxtar Respublika mərhələsində Naxçıvan şəhərini təmsil edəcək.

* * *

20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar Naxçıvan şəhər tam orta məktəblərinin şagirdləri arasında keçirilən "Şəhidlər unudulmaz, hər zaman anılar" adlı şeir müsabiqəsinə yekun vurulub. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkil etdiyi müsabiqədə 17 tam orta məktəbdən 17 şagirdin şeiri dinlənilib. Müsabiqədə çıxış edənlər Qanlı Yanvar faciəsi barədə müsabiqə iştirakçılarına geniş məlumat veriblər. Münsiflər heyətinin qərarına əsasən, 10 nömrəli tam orta məktəbin IX sinif şagirdi Tərlan Quliyeva qalib adını qazanıb. 7 nömrəli tam orta məktəbin V sinif şagirdi İlkanə Quliyeva ikinci, 17 nömrəli tam orta məktəbin VI sinif şagirdi Əhməd Əhmədli və 16 nömrəli tam orta məktəbin VII sinif şagirdi Səma Cəlilova isə üçüncü yerlərə layiq görülüblər.

Qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar. Müsabiqənin qalibi Tərlan Quliyeva muxtar respublika mərhələsində Naxçıvan şəhərini təmsil edəcək.

**Xəbərlər şöbəsi**


## Şərur Rayon Təhsil Şöbəsi

### *2016-cı il üçün kotirovka elan edir*

*1. Dəftərxana ləvazimatlarının satın alınması.*
*2.Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 29 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 1 fevral 2016-cı il tarixdə saat $12^{00}$-də Şərur Rayon Təhsil Şöbəsində açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Arzu Fərzəliyeva***
***Telefon: 542-21-62***
***Ünvan: Şərur şəhəri, K.Kərimov küçəsi, Şərur Rayon Təhsil Şöbəsi***

## Ordubad Rayon Mərkəzi Xəstəxanası

### *2016-cı il üçün kotirovka elan edir*

*1. Dərman preparatlarının satın alınması.*
*2. Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 27 yanvar 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 28 yanvar 2016-cı il tarixdə saat $12^{00}$-də Ordubad Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Pərviz Xəlilov***
***Telefon: 547-00-81***
***Ünvan: Ordubad şəhəri, M.S.Ordubadi küçəsi, 23***

## Sədərək Rayon Mərkəzi Xəstəxanası

### *2016-cı il üçün kotirovka elan edir*

*1. Dərman preparatlarının satın alınması.*
*2. Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 1 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 2 fevral 2016-cı il tarixdə saat $11^{00}$-də Sədərək Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Kəmalə İbrahimova***
***Telefon: 549-02-06***
***Ünvan: Sədərək kəndi, Sədərək Rayon Mərkəzi Xəstəxanası***

### *İtmişdir*

Naxçıvan şəhəri, Şəhriyar küçəsi, döngə 4, ev $11^{B}$-də yaşamış Əliyeva Günəş Qurbanəli qızının adına olan 10087 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Muxtar Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 36